*Mir Möhsün Nəvvab*

# ERMƏNİ TAYFASINA NƏSİHƏTLƏR

*(İxtisarla)*

Əvvəla, bu tayfadan (erməni) sual edirəm ki, bu qədər mərdüməzarlıq və nahaq qanlar tökməkdə, mülklərin və malların talan və tarac edilməsində və yanıb xarabazarlığa çevrilməsində səbəb və mətləbiniz nədən ibarətdir? Əgər məqsədiniz padşahlıq və kral olmaqdırsa, sizin bu təbiətinizlə və insafsızlığınızla heyhat ağla sığan şey deyil. Ağıllı və kamallı insanın sizin haqqınızda düşüncəsi belədir ki, belə səfeh hərəkətlərlə sizin tayfaya nəinki padşahlıq, heç koxalıq və kəndxudalıq da yaraşmır. Bu, dəfələrlə mötəbər dəlillərlə sübut olunmuşdur. Birincisi budur ki, Allah-təala zalıma iqtidar və ixtiyar verməz. Əgər pişiyə qanad versəydi, quşların toxumunu yer üzündən kəsərdi. Hərgah dəvəyə və filə qanad versəydi, tamam damlar dağılardı.

İkincisi, özünüzə məlumdur ki, bundan əvvəl erməni tayfası çox idi. İlan kimi çölü yumşaq, içi zəhri-həlahil olduğundan, basdığını kəsdiyindən, mürüvvətsizlikdə həddini keçdiyindən və başqa xalqlara rəhm etmədiyindən, o qədər belə insafsızlıq və zülmkarlıqlarla məşğul olduqlarından hansı millətin əlinə düşürdülərsə, əməllərinizə görə onlara layiqli cəza verirdilər.

...Qərəz, ermənilərin belə nahaq qanlara bais olmaları, qəddarlığa və mürüvvətsizliyə yol vermələri axırda onların özlərini məhv edəcəkdir. Məgər bunların içərisində idraklı, gələcəyi görən və Allahdan qorxanları yoxmudur ki, uzaqgörənlik edib bu fitnə-fəsadlara bais olan və özlərinin xeyrindən ötrü ailələri xəsarətə düçar edənlərə öyüd-nəsihət verib onları düzgün yola qaytaralar. Bircə bunlardan sual edən yoxdur ki, ay ermənilər, vilayətdə alış-verişlə məşğul olduğunuz, zavod və karxanalar işlətdiyiniz, pul və malınız əlinizdə, çoxunuz milyonçu olduğunuz halda və bir kimsənin sizə gözün üstündə qaşın var demədiyi bir vaxtda Qafqaz vilayətinə saldığınız bu fitnə-fəsadlar nə üçündür?

Mən bilmirəm fitnə-fəsad törədib xalqı qırğına verən bu erməni quldurları o dünyada sorğu-sual zamanı adil Allaha nə cavab verəcəklər?